# ZƏFƏR PARADI: tarixi Qələbənin təcəssümü

*Müasir Azərbaycan tarixində müxtəlif illərdə dəfələrlə hərbi paradlar keçirilib. Lakin onların içərisində elələri də var ki, xüsusi əhəmiyyətinə görə digərlərindən fərqlənir. 2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı təkcə Azərbaycan üçün deyil, eləcə də İslam və türk dünyası üçün tarixi hadisə hesab oluna bilər.*

Bu parad 44 günlük Vətən müharibəsində əldə edilən möhtəşəm zəfərin qeyd olunması və Azərbaycanın işğal altında olan torpaqlarının azad edilməsi münasibətilə keçirildi. Zəfər paradı Azərbaycanın hərbi və siyasi qüdrətinin dünyaya göstərildiyi, həmçinin beynəlxalq arenada sülhə və ədalətə çağırış kimi dəyərləndirilən bir tədbir idi. Tədbirdə iki dost və qardaş ölkənin liderləri - Prezident İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan, həmçinin birinci xanımlar - Mehriban Əliyeva və Əminə Ərdoğan, eyni zamanda Türkiyədən gəlmiş böyük nümayəndə heyəti, türk əsgər və zabitləri iştirak edirlər.

Paradda 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, eləcə də hərbi gəmi və katerlərin nümayişi oldu. Paradda, həmçinin Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş etdirildi. Zəfər paradı Azərbaycanın hərbi üstünlüyünü və xalqın həmrəyliyini dünyaya nümayiş etdirdi. Azərbaycan Silahlı Qüvvələrinin peşəkarlığı və modernləşdirilmiş hərbi texnikası bu qələbənin əsasını təşkil etdi. Zəfər paradı dünyaya ədalətin bərpa edildiyini və Azərbaycanın öz torpaqlarını qanuni yolla azad etdiyini göstərdi. Bu, həm də Azərbaycanın beynəlxalq hüquq çərçivəsində əldə etdiyi tarixi zəfərin tanınmasına səbəb oldu.

Bu möhtəşəm gün Azərbaycan və Türkiyə əsgərlərinin çiyin-çiyinə Azadlıq meydanından keçməsi ilə tarixə yazıldı. Bu mənzərə yalnız həmin günün qürurunu deyil, xalqlarımızın ortaq tarixini, taleyini və gələcək hədəflərini də nümayiş etdirdi. Hər iki ölkənin bayraqlarının ölkəmizin bütün şəhərlərində dalğalanması, küçə və meydanların qırmızı-ağ-yaşıl rənglərə bürünməsi xalqlarımızın ruhunun qovuşduğunu göstərirdi. Bu, bir millət, iki dövlət şüarının canlı təsdiqi idi. Türkiyənin siyasi və mənəvi dəstəyi Azərbaycanın gücünə güc qatdı, xalqlarımız arasındakı bağları daha da möhkəmləndirdi. Bu tarixi parad, dünyaya bir daha Azərbaycan-Türkiyə dostluğunun əzəmətini göstərdi.

44 günlük Vətən müharibəsi Azərbaycanın tarixində yeni bir qəhrəmanlıq salnaməsi yazdı. Şuşa şəhərinin işğaldan azad edilməsi isə bu zəfərin zirvəsi oldu. Şuşada Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin əlləri ilə sancılan Zəfər bayrağı, xalqımızın mübariz ruhunun və sarsılmaz iradəsinin ən parlaq simvoluna çevrildi. Məhz həmin bayraq 8 dekabr Zəfər paradında qürurla nümayiş olundu, ölkəmizin İkinci Qarabağ müharibəsində qazandığı möhtəşəm zəfərin rəmzi kimi xalqın yaddaşında əbədi yer aldı. Azərbaycan Ordusu təkcə torpaqları azad etmədi, o, həm də dövlətimizin və xalqımızın qürurunu, şərəfini və əzəmətini dünyaya nümayiş etdirdi. 44 günlük müharibədə əldə edilən zəfər tariximizin ən parlaq səhifəsi olaraq xalqımıza qələbə sevinci bəxş etdi, yeni qəhrəmanlıq dastanını yazdı. Bu qələbə yalnız bugünkü nəsillər üçün deyil, gələcək nəsillər üçün də örnək olacaq. Şuşanın zirvəsindən dalğalanan bayraq, Azərbaycan xalqının mübarizliyini və Vətən sevgisini əks etdirən əbədi bir simvoldur. Bu zəfər xalqımızın tarixində qızıl hərflərlə yazıldı və hər bir vətəndaşın ürəyində qürur abidəsinə çevrildi.

Zəfər paradının ən unudulmaz hissələrindən biri də Azərbaycanın böyük dostu Rəcəb Tayyib Ərdoğanın özünəxas şəkildə çıxışı oldu. Qardaş ölkənin lideri Xalq şairi Bəxtiyar Vahabzadənin "Torpaqdan pay olmaz" şeirini səsləndirdi.

2023-cü il sentyabr ayında baş tutan antiterror tədbirləri nəticəsində Azərbaycanın suverenliyini tam bərpa etməsindən sonra Xankəndidə tarixi anlar yaşandı. Həmin il 8 noyabrda Xankəndinin mərkəzi meydanında, Vətən müharibəsində qazandığımız möhtəşəm zəfərin üçüncü ildönümünə həsr olunmuş paradla tarixə yeni bir qızıl səhifə yazıldı. Bu möhtəşəm hadisə, Azərbaycan Ordusunun gücünü və xalqımızın qürurunu dünyaya bir daha nümayiş etdirdi. Dünya ictimaiyyəti Xankəndi şəhərində keçirilən bu paradda bir daha "Qarabağ Azərbaycandır!" həqiqətinin şahidi oldu və bu reallıq artıq danılmaz bir gerçək kimi qəbul edildi.

Qeyd edək ki, son 21 ildə Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasəti Azərbaycanın tarixinə qürurla yazılan bir dönəm olub. Onun hər çıxışında səsləndirdiyi vədlər, xalqına bəxş etdiyi ümidlər artıq reallığa çevrilib. İllər öncə işğal altında olan ərazilərimizin azad edilməsi və məcburi köçkün soydaşlarımızın öz doğma yurdlarına qayıdacağı barədə verdiyi sözlər gerçəkliyə çevrilib. Prezident İlham Əliyev illər öncə andiçmə mərasimində bildirmişdi ki, "gün gələcək, biz Azərbaycanın Dövlət Bayrağını işğal altında olan torpaqlarımızın hər bir guşəsində dalğalandıracağıq". Hazırda Şuşada, Xankəndidə, Laçında, Füzulidə, Ağdamda və ölkəmizin hər bir guşəsində üçrəngli bayrağımız ucaldılıb.

**Musa BAĞIRLI,**
**"Respublika".**